Hürriyyət

# Mədəniyyət

SİZİN ÜÇÜN QƏZET

№10 (3208) 29 Mart / 2022-ci il



www.hurriyyet.az; / hurriyyet@mail.ru

Onunla 5 il əvvəl Azərbaycan Dövlət Tibb Universitetinin idman korpusunda "Çinar" rəqs ansamblına aid guşədə görüşdük. Söhbətimiz maraqlı oldu və ondan Azərbaycan rəqs quruluşlarına aid xeyli məlumat əldə etdim. Respublikanın məşhur və yaşlı rəqs nümayəndələri, bu sırada tanınmış, bilici rəqqas, əməkdar artist, Dövlət Rəqs Ansamblının baletmeysteri Xanlar Başirov mənə mütləq Nisəxanımla görüşüb söhbət aparmağı məsləhət görmüş, demişdilər ki, bu nəzakətli, təvazökar, mədəni xanımın biliyi zəngin, intellekt səviyyəsi çox yüksəkdir. Bildirmişdilər ki, haqqı sevən, öz işini bacaran, sənətinə dərin sevgi bəsləyən bu xanım rəqs sənətinin əsl nümunəvi nümayəndələrindən biri olaraq bu sahədə öz dərin izini qoymuşdur.



bədii kolletivlərinin çıxışı böyük rezenans doğurmuşdu. Mahnı və Rəqs Ansamblının tərkibində N.Rəhimovanın solo ifaları da xüsusi əhəmiyyət daşıyaraq dəyərləndirilmişdi. Həmin ölkələrin qəzet və jurnallarında ansamblın uğuru, repertuarı və solistləri haqqında yazılan məqalələrdə Nisəxanım Rəhimovanın da maraqlı ifasını qeyd etmişdilər.

Nisəxanım oynadığı rəqslərdə əldə etdiyi, yarada yaşada bildiyi nə varsa, hamısı milli-mənəvi dəyərlərimizə söykənib, ənənələrdən qaynaqlanıb və Əlibaba Abdullayev məktəbindən qidalanıb. Onun oynadığı rəqslər öz nizamı, boy-biçimi, bədii-emosional təsiri ilə Azərbaycan incəsənətinə və milli mədəniyyətimizə əsl töhfədir. Bəli, bu belədir, həqiqətdir, milli irsə əsl xidmətdir.

"Çinar"ı yaradan xalq artisti Əminə Dilbazidən (1919-2010) yadigar qalan rəqslərin də bərpasına nail olub.

Nisəxanım Mahnı və Rəqs Ansamblının solisi olmuş Əvəz Qasımovla (1945-2005) ailə qurub. Allah-təala sevgi, qarşılıqlı hörmət, anlaşma və səmmi münasibətdən yaranan ailəyə bir oğul və bir qız bəxş edib. Onlar övladları layiqli Azərbaycan vətəndaşı kimi böyüdüblər.

Göründüyü kmi N.Rəhimovanın bütün həyatı rəqs aləmində keçib, elə indi də bu yöndədir, biliyini həvəslə gənclərə öyrədir.

Belə unikal sənət sahibi, nadir rəqqasə, bu sahəyə öz zəngin töhfələrini bəxş edən ifaçı əlaqədar təşkilatların rəhbərliyinin, nümayəndələrinin nəzərindən kənar qalıb, ona layiq olduğu dəyər ve-

# Milli rəqs sənətində örnək olan rəqqasə

## Nisəxanım Rəhimovanın həyat və yaradıcılığı



*(Əvvəli ötən sayımızda)*

Rəşid Behbudovun oxuduğu "Yabançı olduq şimdi" türk mahnısında Nisaxanımın rəqsi böyük marağa səbəb olaraq, ona tamaşaçı hörməti və məhəbbəti qazandırırdı. Dünya səhnələrində nəyə tələb olunduğunu çox yaxşı bilən ustad müğənni, böyük sənət nümayəndəsi R.Behbudov öz teatrına nadir baletmeyster və rəqs nümayəndələrini cəlb etmişdi. O, Nisəxanımın sənətinə yüksək dəyər verirdi. N.Rəhimova SSRİ-də və dünya ölkələrinin səhnələrində həmişə unikal sənət sərgiləyib. O, "Qaytağı"da, "Cücələrim" rəqslərində və Ü.Hacıbəylinin "Arşın mal alan" operettasının musiqisi əsasında hazırlanan kompozisiyada böyük məharət göstərirdi. O, "Qaytağı"da əlində nağara səhnəyə çıxaraq dərhal nəzər-diqəti cəlb edir, diz üstə fırlanaraq rəqsin təsir qüvvəsini, dinamikanı gücləndirir, məzmunu zənginləşdirir və verilmiş quruluşun mahiyyətini açıb göstərirdi. Onun oynadığı hər bir rəqs obraza bürünərək əsər halına çevrilirdi. Həmin vaxtlar Dövlət Mahnı Teatrında quruluşçu baletmeysterlər-xalq artistləri, böyük rəqs sənətçiləri Rəfiqə Axundova və Maqsud Məmmədov, məşqçi Maritsa Alekseyevna Syomina idi.

N.Rəhimovanın xatirələrindən: "R.Axundova və M.Məmmədov mənim hər bir solo ifamı üzərində xüsusi işləyirdilər. "Arşın mal alan" operettası əsasında hazırlanan kompozisiyada əvvəl R.Behbudov Əsgərin ariyasını oxuyurdu, davamı olaraq Üzeyir bəyin musiqisi üzərində edilmiş aranjeman ilə dünya ölkələrinin rəqsləri nümayiş etdirilirdi. Bu kompozisiya keçmiş Sovet respublikalarının hər yerində maraqla qarşılanırdı".

N.Rəhimova 1972-ci ildə yenidən Mahnı və Rəqs Ansamblına qayıdır və buradkı fəaliyyəti 1991-ci ildə tamamlanana qədər daim böyük uğurlara imza atır. O, bu kollektivinin aparıcı gücü və əsas solistlərindən biri olaraq çox böyük zəhmət çəkir, sevilir, ünvanına səmimi və xoş sözlər deyilir. Kütləvi, duet rəqslər, kompozisiyalar və sütalarda ona ayrılan soloların bacarıqlı ifaçısı olan Nisəxanım həmişə alnı-açıq, üzüağ və başqalarına nümunə göstərilən rəqqasə olur. Beləliklə, bütün fəaliyyəti ərzində Nisaxanım əsl sənət sərgiləyir, mənalı ömrünü Azərbaycanın şərəfli və zəngin mədəniyyətinə həsr edir.

Nisəxanım "Tərəkəmə"ni öz yanaşması, düşüncəsi, həssas duyğuları və zəngin, milli çalarlarla canlandırır, T.Hacıyevin "Lalələr" mahnısında gözəlliyi vəsf edir, "Ceyran" duet rəqsdə məşhur rəqqas, əməkdar artist Qorxmaz Qurbanov və ya Azad Hüseynovla tərəf-müqabil olaraq öz ifasını yüksək həddə çatdırırdı. N.Rəhimova "Nazeləmə"ni filarmoniya səhnəsində 20 il oynamışdır. Bu duet-rəqsdə onun tərəf-müqabili (yöndaşı) həyat yoldaşı, mahir rəqqas Əvəz Qasımov olmuşdur. Belə uğurlu ömürgün və həm də sənət cütlüyü bu rəqslə dünya səhnələrini fəth edirdi. Tamaşaçılar yalnız rəqsin dinamikası, süjeti, maraqlı hərəkətləri, zəngin çalarları ilə deyil, bu çütlüyün səmimiyyətini duyaraq ifanı alqışlara qərq edirdilər.

N.Rəhimova-Qasımova Mahnı və Rəqs Ansamblının repertuarındakı bütün rəqs quruluşlarının solisti olaraq dərin tmaşaçı sevgisi qazanmışdır.

Nisəxanımın yöndaşla (tırəf-müqabil) ünsiyyət qurmaq bacarığı həmişə yüksək olaraq görkəmli rəqs mütəxəssisləri və Dövlət Filarmoniyasının rəhbərliyi tərəfindən təriflənir, ona hörmət bəslənirdi. Onun rəqsləri quru, sxematik cəhətlərdən daim uzaq olmuşdur. Əbəs deyil ki, vaxtılə çalışdığı ansamblın əsas qüvvəsi olan rəqqaslar onunla tərəf-müqabil olmaqdan məmnunluq duyurdular. Bu sırada Əlikram Aslanov (1934-2006), Alim Zeynalov (1939-sağ), Qorxmaz Qurbanov (1940-2021), Rafiq Əzizov (1941-2006), Azad Hüseynov (1945-2015), Əvəz Qasımov (1945-2005)) və başqalarının adlarını dərin hörmətlə çəkirik.

Nisəxanım qızlar üçün quruluş verilmiş rəqslərdə də layiqli solist kimi həmişə özünü doğruldaraq məharətli ifaçı kimi önə çıxıb. O, "Vağzalı-Mizəyi"də üç rəqqasədən biri kimi ortada rəqs edən solist olub. Nisəxanımın söylədiklərindən: "Bu rəqsdə çıxış etmək böyük məsuliyyət tələb edir. Mən 1969-cu ildə Mahnı və Rəqs Ansamblına gələndə əvvəlki məşhur sənət adamlarının əksəriyyəti, bu sırada Roza Cəlilova, Nailə Mahmudova (1929-2000), Aliyə Ramazanova, Afaq Məlikova, Zemfira Camalova var idi. onların hər biri təcrübəli və fəxri adları olan sənətkarlardır. Bu rəqqasələr də "Vağzalı-Mirzəyi"nin ən gözəl iaçıları olublar".

1977-ci ildə İtaliyada, 1979-cu ildə Özbəkistanın Daşkənd şəhərində Azərbaycan mədəniyyəti günləri keçirilərkən vətənimizin

Sovet dövründə 20 il rəqs sahəsində çalışanları pensiyaya göndərirdilər. Sonra isə kimsə inzibati işlərdə çalışır, kimsə dərs deyir, kimisi də özfəaliyyət rəqs ansamblına rəhbərlik edirdilər. Nisəxanım rəqs sənətinin tədrisi ilə məşğul olub, 5 il Bakı Xoreoqrafiya Məktəbində milli rəqslərdən qızlara, dünya xalqları rəqslərindən oğlan qruplarına dərs deyib. 1997-ci ildən AMK tərkibində İncəsənət Gimnaziyasımda 15 il pedaqoji fəaliyyət göstərib, şagirdlərə rəqs sənətini sevdirməyi və onun sirlərini öyrətməyi bacarıb. N.Rəhimova pedaqoji işdə də nümunəvi, səmərəli çalışıb və onun yetirmələri arasında yüksk göstəricilərə imza atanlar olub. O, özfəaliyyət rəqs ansamblarında da çox bacarıqlı rəhbər olub. 1990-1992-ci illərdə Bakı Dövlət Universitetində tələbə qızlardan ibaət yaratdığı "Aygün" rəqs anasamblı ilə "Yallı", "Nəlbəki", "İnnabı", "Dəsmalı" rəqslərini hazırlayıb. Həmin ansambl Rusiyanın Ufa, Türkiyənin Qars, İzmir şəhərlərində konsertlər verib. N.Rəhimova 1993-cü ildən başlayaraq 4 il Resublika Xalq Yaradıcılığı Evinin nəzdində oğlanlar və qızlardan ibarət "Şərq uduzları" rəqs ansamblına rəhbərlik edib.

Bu sənət fədaisi, yorulmaz, bacarıqlı xoreoqraf Memarlıq və İnşaat Universitetində də dəvət alaraq burada qızlardan ibarət "Buta" rəqs ansamblı yaradıb və ona 2012-2014-cü illərdə rəhbərlik edib. Ansamblın qardaş ölkə Türkiyəyə səfərləri olub.

Nisəxanım Rəhimova 2016-cı ilin noyabr ayından Azərbaycan Dövlət Tibb Universitetiin tələbə qızlardan ibarət "Çinar" özfəaliyyət rəqs ansamblına rəhbərlik edir. Bu istedadlı xanım burada bir sıra milli rəqslərə quruluş verib. O,



rilmədiyi üçün fəxri adlardan məhrum olub. Bu vətənpərvər, qürurlu, vüqarlı xanım bu barədə kimsəyə müraciət etməyib. Hərə bir vasitə ilə fəxri adlara və imtiyazlara nail olub. Təbii ki, laqeydlik hökm sürəndə, insaf, mürüvvət, vicdan və ədalət olmayanda iş belə nəticələnir. Zəngin və böyük yaradıcılıq yolu keçən, milli rəqs sənətinin əsas qüvvəsinə çevrilən nümunəvi bir sənət adamına qarşı əsl haqsızlıq edilmişdir

Mən təcrübəsi böyük, fəaliyyəti geniş, təqdim etdiyi töhfəsi zəngin olan belə bir sənət adamı haqqında ötən illərdə "Kredo" qəzeti və "Milli irs" jurnalında məqalə ilə çıxış etmişəm. Belə sənət adamları haqqında yazmaq vəzifə borcumuz olmalıdır.

**Əhsən RƏHMANLI**
**Tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru**